ƏSLİ İLƏ DÜZDÜR

**AZƏRBAYCAN RESPUBLİKASI**
**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISININ**

# S Ə R Ə N C A M I

№ 43 «13» 03 2020 il

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Aparatı yanında Fövqəladə əksepidemik komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında**

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Aparatında və müvafiq idarələrdə aparılmış kadr dəyişiklikləri ilə əlaqədar olaraq " Yerli icra hakimiyyətləri haqqında Əsasnamə" nin 3.15.12-ci, 4.7-ci və 6.8 bəndlərinə əsaslanaraq

QƏRARA ALIRAM:

1. Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının yanında Fövqəladə əksepidemik komissiyasının yeni tərkibi aşağıdakı kimi təsdiq edilsin;

**Komissiyanın sədri:**

- Vüsar İsmayılov — Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini

CamScanner ilə tarandı

**Komissiyanın üzvləri:**

| | |
|---|---|
| - Yunis Hüseynov | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Hüquq şöbəsinin müdiri |
| - Nicat Allahverdiyev | İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri |
| - Yəhya Əliyev | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri |
| - Azər Kərimov | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Rayon təsərrüfatı şöbəsinin müdiri |
| - Musa Musayev | Rayon Polis İdarəsinin rəisi |
| - Ramiz Qafarov | Rayon Qaz İstismar Sahəsinin rəisi |
| - Kamil Şərbətov | Rayon Dövlət Yanğından Mühafizə hissəsinin rəisi |
| - Elmin Zamanov | Binəqədi Rayon Mənzil Kommunal Təsərrüfatı Birliyinin rəisi |
| - İsrafil Məmmədov | Rayon Fövqəladə hallar və Mülki Müdafiə şöbəsinin rəisi |
| - Fədai Hacıyev | Binəqədi Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru |
| - Bəyalı Məmmədov | Ə. Məlikov adına 6 saylı Birləşmiş Şəhər Xəstəxanasının baş həkimi |
| - Elnur Əliyev | Rayon Su kanal Departameninin rəisi |
| - Paşa Rzayev | Rayon Enerji Təchizatı və Enerji satış idarəsinin rəisi |

CS CamScanner ile tarandı

- Namiq Tarıverdiyev — Rayon Gənclər və İdman İdarəsinin rəisi

- Cahandar Axundov — Əhalinin Sosial Müdafiəsi Mərkəzinin direktoru

2. **Komissiya üzvlərinə tapşırılsın:**

- zərurət yarandığı zaman müvafiq sahələr üzrə mütəxəssis və ekspertlərin cəlb olunmasını təmin etsinlər;

- təbii fəlakət və ya fövqəladə hadisə baş verdikdə, əhalinin təhlükəsizliyinin təmin olunması üçün tədbirlər görür, bu hadisələr nəticəsində zərər çəkmiş insanlara yardım göstərilməsini təşkil etsinlər;

- Fövqəladə vəziyyət elan olunmuş yerlərdə ziyan çəkmiş və ekoloji şəraitin əlverişsiz olduğu ərazilərdə yaşayan vətəndaşların qanunvericilikdə müəyyən edilmiş qaydada tibbi yardım, bərpa müalicəsi almaq, dərman vasitələri, immunobioloji preparatlar və tibbi məmulatlarla təmin olunmaq, eləcə də həyat və sağlamlıq üçün təhlükəli amillərin aradan qaldırılması məqsədilə gigiyenik və əksepidemik tədbirlərin keçirilməsini təmin etsinlər;

- təbii fəlakətlər və ya fövqəladə hadisələr baş verdikdə, müəssisə, idarə və təşkilatların fasiləsiz fəaliyyətinin təmin edilməsi, dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan əmlakın qorunması, ictimai qaydalara riayət olunması, insanların həyatının xilas edilməsi, onların sağlamlığının və hüquqlarının qorunması, maddi sərvətlərin qorunub saxlanılması məqsədi ilə aidiyyəti dövlət orqanlarının fəaliyyətini təmin etsinlər.

3. Komissiyanın sədri Vüsar İsmayılova tapşırılsın ki, komissiyanın fəaliyyətini təşkil etsin və görülmüş işlər barədə Rayon İcra Hakimiyyətinin başçısına məruzə etsin.

4. Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 06 mart 2015-ci il tarixli 50 nömrəli Sərəncamı qüvvədən düşmüş hesab edilsin;

5. Aparatın Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Sabir Əliyevə tapşırılsın ki, Sərəncamın surətinin göndərilmə siyahısına uyğun olaraq çatdırılmasını təmin etsin.

**Elxan Allahverdiyev**

CamScanner ilə tarandı